**AZƏRBAYCAN RESPUBLİKASI**
**NAXÇIVAN MUXTAR RESPUBLİKASI**
**NAZİRLƏR KABİNETİ**

# Q Ə R A R

**Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin "Avtomobil Yolları" Məqsədli Büdcə Fondunun vəsaitinin muxtar respublika ərazisində ümumi istifadədə olan respublika və yerli əhəmiyyətli avtomobil yollarının saxlanması və təmiri, habelə avtomobil yollarının layihələndirilməsi, yenidən qurulması və tikintisi ilə bağlı kompensasiyaların ödənilməsi üçün xərclənməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" 2018-ci il 12 yanvar tarixli 6 nömrəli Qərarında dəyişiklik edilməsi və "Naxçıvan Muxtar Respublikasının avtomobil yollarında nişanlama xətlərinin ölçülərinin müəyyən edilməsi haqqında" 2017-ci il 17 iyun tarixli 59 nömrəli Qərarının ləğv edilməsi barədə**

"Naxçıvan Avtomobil Yolları Dövlət Agentliyi" publik hüquqi şəxsin yaradılması haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2023-cü il 17 noyabr tarixli 213-VI FR nömrəli Fərmanının 4.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2018-ci il 12 yanvar tarixli 6 nömrəli Qərarı ilə təsdiq edilmiş "Avtomobil Yolları" Məqsədli Büdcə Fondunun vəsaitinin muxtar respublika ərazisində ümumi istifadədə olan respublika və yerli əhəmiyyətli avtomobil yollarının saxlanması və təmiri, habelə avtomobil yollarının layihələndirilməsi, yenidən qurulması və tikintisi ilə bağlı kompensasiyaların ödənilməsi üçün xərclənməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3.2-ci bənddə "Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlət Agentliyinin" sözləri "Naxçıvan Avtomobil Yolları Dövlət Agentliyinin" sözləri ilə əvəz edilsin;

1.2. 3.3-cü bənddə “Naxçıvan Muxtar Respublikasının Avtomobil Yolları Dövlət Şirkətidir” sözləri “Naxçıvan Avtomobil Yolları Dövlət Agentliyidir” sözləri ilə əvəz edilsin;

1.3. 4.1-ci bənddə “Naxçıvan Muxtar Respublikasının Avtomobil Yolları Dövlət Şirkəti” sözləri “Naxçıvan Avtomobil Yolları Dövlət Agentliyi” sözləri ilə əvəz edilsin.

2. “Naxçıvan Muxtar Respublikasının avtomobil yollarında nişanlama xətlərinin ölçülərinin müəyyən edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 iyun tarixli 59 nömrəli Qərarı ləğv edilsin.

3. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Səbuhi Məmmədov**

Naxçıvan şəhəri, “29” yanvar 2024-cü il

№ 4